# PODAQRA

Ağrılı sidik turşusu yığıntılarıdır



# PODAQRA

Aydın və sadə

- Podaqra maddələr mübadiləsinin pozulması səbəbindən yaranan xəstəlikdir, bu zaman orqanizmdə sidik turşusunun miqdarı çox yüksək səviyyəyədək artır, sidik turşusu oynaqlarda kristallar şəklində çökür və oynaqların iltihablanmasına səbəb olur. Tibb mütəxəssisləri bu klinik vəziyyəti "çöküntülü hiperurikemiya" adlandırırlar.

- Sidik turşusu metabolizmin təbii son məhsuludur. Böyrəklər sidik turşusunu qandan təmizləyib çıxarır və daha sonra sidik turşusu başlıca olaraq sidiklə ifraz olunur.

- Sağlam insanlarda sidik turşusunun səviyyəsi tarazlıq vəziyyətindədir, bu o deməkdir ki, əmələ gələn və orqanizmdən çıxarılan sidik turşusunun miqdarı demək olar ki, eynidir.

- Bu tarazlıq pozularsa, sidik turşusunun səviyyəsi həddən artıq yüksələcəkdir. Nəticədə, qandakı sidik turşusu kristallaşa və iynəşəkilli kristallar əmələ gələ bilər.

- Oynaqların ətrafında yığılan bu kristal çöküntüləri şiddətli ağrı, iltihab və şişkinliyə səbəb olur.

- Müəyyən hallarda, çöküntülər səbəbindən oynaqlar deformasiya oluna, sərtləşə və hərəkətsizləşə bilər. Bu vəziyyət əsasən əl və ayaq barmağı oynaqlarına təsir edir.

BC-ID-ADE_2019_2 Date of Approval: 07/2019